***Əkbər Qoşalı***
***Ümidsiz ha deyilik...***

Dağlı sinələr üstündə
Daşa döndü sağ qollar
O gün Fəxri Xiyabana
        aparırdı bütün yollar

Adını zikr eyləyirdi
-millət –
arınsın deyə,
torpağa tapşırılsan da
yenə bizimləsən, yenə.

Əllər duaya açıldı,
mübarək göy üzünə.
Qurub-yaradan kişinin
Ruhu gəzər göy üzündə.

İzin ilə yürüyürük
Ümidsiz ha deyilik
Biz Tanrısız doğulmadıq
Sabaha hay veririk!

***Qoşalı Ə. Ümidsiz ha deyilik... // Yeni Azərbaycan. – 2013. – 9 may. - № 82. – S. 11.***